Cəhənnəm əzabının xəfiflədilməsi məsələsi

Cəhənnəm əzabının xəfiflədilməsi məsələsi

“Ve keza, kafirin meskeni, cehennemdir ve orada ebedi kalacaktır. Bununla beraber, kafir, küfrünün cezası olarak kesb-i istihkak ettiği [haqq qazandığı] ebedi cehennemde kalmakla beraber, amelinin cezasını çektikten sonra, ateşe karşı bir nevi ülfet peyda eder.

Bununla beraber, ehadis-i Nebeviyye [Peyğəmbər hədislərinin] işaret ettiği gibi; kafirlerin dünyada yaptıkları a’mal-i hayriyyelerine [xeyir əməllərinə] mükafaten, azablarının hafifletilmesi de vardır. İşte bu, layık olmadıkları halde, onlara bir merhamettir.”[1]

.....

Şərhi:

Əvvəla: Kafirin işləmiş olduğu yaxşı əməllər haqqında, 2 görüş vardır:

• **Birincisi:** Alimlərin cumhuruna görə, kafir, dünyada işləmiş olduğu xeyirlərin mükafatını, sadəcə dünyada görər. Axirətdə isə, küfründən dolayı, xeyirlərinin mükafatını görməz və əzabı da xəfifləməz. Ancaq, kafirlər, dünyada işləmiş olduqları xeyirlərin yerinə şər işlər də görə bilərdilər. O günahın yerinə xeyir işləmələri səbəbilə, şərləri az olacağından, cəhənnəmdəki dərəcələri də, ayrı-ayrı olar.

• **İkincisi:** Kafir, işləmiş olduğu yaxşılıqlarının qarşılığını, əksəriyyətlə dünyada görər. Əgər dünyada yaxşılıqlarının qarşılığını tam almamışdırsa, o vaxt, axirətdə, xeyirli əməllərinə mükafat olaraq, cəhənnəmdəki əzabları xəfiflədilər və cəhənnəmdə qalacağı yer təsbit

1 (Arabi İşaratu’l-İ’caz, s. 34)

edilər. Cəhənnəmə getdiyində isə, özü üçün təsbit edilən o yerində əbədi olaraq qalar və əzabı, əsla xəfifləməz. Məsələn, Edison, bəşəriyyətin mənfəətinə səbəb olan elektrik kimi külli bir xeyrə səbəb olmuşdur. Əgər iman etmədən ölmüşdürsə, dünyada bir çox İlahi nemətə nail olmaqla mükafatını aldığı kimi; axirətdə isə, əgər dünyada yaxşılıqlarının qarşılığını tam almamışdırsa, əbədi cəhənnəmdə qalması qəti olmaqla bərabər, cəhənnəmdə digər kafirlərə nisbətən, əzabı xəfif olar.

Müəllifimiz Ustad Said Nursi (rahmətullahi aleyh), bu mövzuda belə deyir:

"Dünyada şu mü'min, kısmen kusurâtından [qüsurlarının] cezasını gördüğü için, dünya onun hakkında bir dâr-ı cezadır [cəzalandırıldığı yerdir]. Dünya, onların saadetli âhiretlerine nisbeten, bir zindan ve cehennemdir.

Ve kâfirler, madem Cehennemden çıkmayacaklar; hasenatlarının [yaxşı əməllərinin] mükâfatlarını kısmen dünyada gördükleri ve büyük seyyiatları [günahları] tehir edildiği [ertələndiyi, təxirə salındığı] cihetle, onların âhiretine nisbeten dünya cennetleridir." [1]

O halda, bu 2 görüş sahibləri arasındakı ixtilaf, ləfzidir (ləfzdən ibarətdir). Həqiqətdə isə, ixtilaf yoxdur deyilə bilər.

• **İkincisi:** Quranın ifadəsilə, cəhənnəm, 7 təbəqədir və hər təbəqə, ona layiq günahkarlarla doludur.

وَإِنَّ جَهَنَّمَ لَمَوْعِدُهُمْ أَجْمَعِينَ ۞
لَهَا سَبْعَةُ أَبْوَٰبٍ لِّكُلِّ بَابٍ مِّنْهُمْ جُزْءٌ مَّقْسُومٌ

1 (Lemalar, 10-cu Ləma, s. 49)

“Həqiqətən, cəhənnəm, onların hamısına vəd olunmuş yerdir. Onun yeddi qapısı vardır. Hər qapı üçün onlardan müəyyən bir dəstə təyin olunmuşdur.”[1]

Bəzi müfəssirlərə görə, cəhənnəmin 7 qapısından məqsəd, 7 təbəqəsidir. Bu təbəqələrdən:

~ **Birincisi**: *“Haviyə”*[2]**;**

~ **İkincisi:** *“Səqar”*[3]**;**

~ **Üçüncüsü:** *“Səir”*[4]**;**

~ **Dördüncüsü:** *“Hutamə”*[5]**;**

~ **Beşincisi:** *“Cahim”*[6]**;**

~ **Altıncısı:** *“Ləza”*[7]**;**

~ **Yeddincisi:** *“Dərki’l-Əsfəl”*[8]**;**

• **Üçüncüsü:** Kafir, küfrü səbəbilə özü üçün təsbit edilən cəhənnəm təbəqəsində, 2 cür cəza görəcək:

~ **Biri:** “Huququllah” (Allahın haqları)’na təcavüz etməsi səbəbilə, layiq olduğu cəzadır.

Bəli, küfr, Allahın sonsuz olan Zat, sifət və isimlərini inkar olduğundan, Allahın haqlarına sonsuz bir təcavüzdür. Bunun cəzası isə, əbədi

---

1 (Hicr/43-44)
2 (Qariə/8-9)
3 (Mudəssir/26)
4 (Mulk/5)
5 (Huməzə/5)
6 (Maidə/10)
7 (Məaric/15)
8 (Nisa/145)

cəhənnəmdir. Çünki Allah, əbəbi olduğu kimi, hər bir isim və sifəti də əbədidir. Dolayısı ilə, Allahın Zatını və ya isim və sifətlərindən birini inkar etmək, əbədi bir əzabı nəticə verir.

Məsələn, Allahın əzəli və əbədi kəlamı olan Quranın bir tək ayəsini rədd edən və ya Quranın bir tək hökmünü inkar edən kimsə, o sonsuz olan kəlam sifətini inkar etdiyindən dolayı, sonsuz bir cinayət işləmiş olar. Sonsuz bir cinayət isə, sonsuz bir əzabı iqtiza edər (gərəkdirər). Bu isə, əbədi cəhənnəmdir və kafirin cəhənnəmdə çəkəcəyi əzabda, xəfifləmə olmaz; əksinə, əzabı, davamlı olaraq çoxaldılar.

Demək, mətndə keçən ***"kafirin kesb-i istihkak ettiği ceza"***dan murad: *kafirin huququllaha təcavüzündən dolayı, əbədi cəhənnəmdə qalmasıdır.*

~ **Digəri:** Kafirin, "huququ'l-ibad" (qulların haqları)'na təcavüz etməsi səbəbilə, cəhənnəmdə çəkəcəyi əməlinin cəzasıdır.

Bəli, küfr, bütün mövcudatı təhqir və zərrədən ərşə qədər ümum mövcudatın Allahın varlıq və birliyinə şəhadətlərini rədd və təkzib (yalanlama) olduğundan, "huququ'l-ibad"a bir təcavüzdür. Kafir, mövcudatın hüquqlarına təcavüz etdiyindən dolayı, layiq olduğu cəzasını çəkdikdən sonra, kafirin vücudu, atəşə qarşı bir növ ülfət peyda edər, yəni buna alışar. Haqq Taala, qulların haqlarına təəllüq edən cəza bitmədikcə, cəhənnəm əhlinə ülfət nəsib etməz.

Bax mətndə keçən ***"kafirin amelinin cezası"***ndan murad: *"huququ'l-ibad"a təcavüzündən dolayı çəkdiyi əzabdır.* Hər bir zərrənin təhqiri, bir qətl; hər bir zərrənin Allahın varlıq və birliyinə şəhadətinin təkzibi isə, başqa bir qətl hökmündə olduğu həqiqəti düşünülsə, kafirin əməlinin cəzasının nə qədər böyük və daimi olduğu anlaşılır. Müəllifimiz Ustad Said Nursi (rahmətullahi aleyh), bu mövzuda belə deyir:

“Evet, küfür:

~ mevcudatın kıymetini iskat (salmaq) ve mânâsızlıkla itham ettiğinden, bütün kâinata karşı bir tahkir; ve

~ mevcudat âyinelerinde cilve-i Esmâyı (isimlərin təcəllilərini) inkâr olduğundan, bütün esmâ-i İlâhiyeye (Allahın bütün isimlərinə) karşı bir tezyif (həqarət); ve

~ mevcudatın vahdâniyete (Allahın birliyinə) olan şehadetlerini reddettiğinden, bütün mahlûkata karşı bir tekzip (yalanlamaq) olduğundan,

istidad-ı insanîyi (insan istedadını) öyle ifsad eder ki, salâh (xeyri) ve hayrı kabule liyakati kalmaz.

Hem bir zulm-ü azîmdir (böyük bir zülmdür) ki, umum mahlûkatın ve bütün esmâ-i İlâhiyenin (Allahın bütün isimlərinin) hukukuna bir tecavüzdür.

İşte şu hukukun muhafazası ve nefs-i kâfir (kafirin nəfsi) hayra kabiliyetsizliği, küfrün adem-i affını (bağışlanmamasını) iktiza eder (gərəkdirər).

إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ

‘Şübhəsiz ki, şirk, böyük bir zülmdür.’[1] *şu mânâyı ifade eder.”*[2]

“Sual: Kısa bir zamandaki küfre mukabil, hadsiz bir zaman Cehennemde hapis nasıl adalet olur?

Elcevap: Sene 365 gün hesabıyla, bir dakikada katl, yedi milyon sekiz yüz seksen dört bin dakika hapis iktizası (həbs gərəkdirdiyi), kanun-u adalet (ədalətin qanunu) iken; bir dakika küfür, bin katl

---

1 (Loğman/13)

2 (Sözlər, 10-cu Söz: “Haşir Risalesi”, 9-cu Həqiqət, s. 79)

hükmünde olduğundan, yirmi sene ömrünü küfürle geçiren ve küfürle ölen bir adam, kanun-u adaletle (ədalətin qanunu ilə), elli yedi trilyon iki yüz bir milyar iki yüz milyon sene, beşerin kanun-u adaletiyle (ədalət qanunu ilə) hapse müstehak (haqq qazanmış) olur.

Elbette, 'خَالِدِينَ فِيهَا أَبَدًا / orada əbədi qalacaqlar', adalet-i İlâhî (Allahın ədaləti) ile veçh-i muvafakati (müvafiq yönü) bundan anlaşılıyor.

Birbirinden gayet uzak iki adedin sırr-ı münasebeti (münasibətlərindəki sirr) şudur ki:

Katl ve küfür, tahrip ve tecavüz olduğu için, gayre tesirat yapar. Bir dakikada katl, lâakal (ən az), zâhirî âdete göre, on beş sene maktulün (qətl edilənin) hayatını selb eder (ortadan qaldırar), onun yerine hapse girer. Bir dakika küfür:

~ bin bir esmâ-i İlâhîyi (Allahın isimlərini) inkâr; ve

~ nukuşlarını (naxışlarını, yəni təcəlliləri) tezyif (həqir görmək); ve

~ kâinatın hukukuna tecavüz; ve

~ kemâlâtını inkâr; ve

~ hadsiz delâil-i vahdâniyeti tekzip (Allahın varlıq dəlillərini yalanlamaq) ve şehadetlerini reddetmek olduğundan, kâfiri, bin seneden ziyade esfel-i sâfilîne atar, "خَالِدِينَ (qalacaqlardır)"de hapseder." [1]

• **Dördüncüsü**: Kafirin cəhənnəmdə çəkəcəyi əzab ilə bağlı, 2 mühim məsələdir. Belə ki:

~ Birinci məsələ: Əzab çəkən kafirin cəsədinin halıdır.

---

1 (Ləmalar, 28-ci Ləma, 19-cu Nüqtə, s. 288)

Kafir, yuxarıda izah edilən əməlinin cəzasını çəkdikdən sonra, cəhənnəm atəşinə qarşı bir növ ülfət peyda edər. Bu ülfət, əsla və əsla, əzabın xəfifləyəcəyi mənasına gəlməz. Əksinə, cəhənnəmə girdiyi ilk andan etibarən, kafirin əzabı davamlı olaraq artar.

Bəli, İlahi əzab, cəhənnəmdə davamlı olaraq artdığı kimi; buna bağlı olaraq vücudun o əzabdan adlığı ağrılar da, davamlı olaraq artar.

Demək, həm əzab, həm də o əzabdan hasil olan ağrılar, daimi olaraq artar. Əzabda və ağrıda, azalma və xəfifləmə olmaz. Ancaq vücud, bu əzaba qarşı təhəmmül etməyə alışar və ülfət peyda edər. Bu da, ona bir növ rəhmətdir.

Müəllifimiz Ustad Nursi (rahmətullahi aleyh)'in, ***"Kafir, küfrünün cezası olarak kesb-i istihkak ettiği [haqq qazandığı] ebedi cehennemde kalmakla beraber, amelinin cezasını çektikten sonra, ateşe karşı bir nevi ülfet peyda eder."*** cümləsində keçən, «ülfet» təbiri, əzabın xəfifləməsi və ağrıların azalması demək deyildir. Əksinə, zamanla o əzaba alışmaqdır. Haqq Taala, **"huququ'l-ibad"**a təəllüq edən cəza bitmədikcə, cəhənnəm əhlinə ülfət nəsib etməz; onlar, cəhənnəmdə davamlı fəryad edib qalarlar.

Cəhənnəm əhlinin İlahi əzaba qarşı ülfət peyda etməsini ağla yaxınlaşdırmaq üçün, bir neçə misal zikr edəcəyik:

~ **Birinci misal:** Necə ki, xəstə bir adam, xəstəliyinin ilk günlərində vücudu buna alışmadığından dolayı çox ağrı çəkər; xəstəliyi davam etdikcə, zamanla vücud o xəstəliyə alışar və xəstə olan adam da, bu xəstəliyi qəbullanar. Xəstəlik və ağrılar xəfifləmədiyi halda, zamanla vücud, o xəstəliyə alışar.

~ **İkinci misal:** Qış mövsümü gəldiyi vaxt, insanlar, birdən soyuğa tutulduqları üçün, çətinlik çəkərlər. Qışın soyuğu və çəkilən sıxıntı xəfifləmədiyi halda, insanlar, zamanla o soyuğa alışarlar.

~ **Üçüncü misal:** Həbsə girən bir adam, ilk vaxtlar çox narahat olarlar. Həbs cəzası azalmadığı və çəkdiyi sıxıntı düşmədiyi halda, zamanla halına razı olur və bu cəza və sıxıntıya alışır.

~ **Dördüncü misal:** Yeni elmə başlayan bir tələbə, ilk zamanlarda elm təhsilində çətinlik çəkər. Ancaq zamanla bu çətinliyə alışar.

~ **Beşinci misal:** İlk olaraq 50 kilonu qaldırmaq, bir adama çətin gəlir. Zamanla idman edərək, bu yükü, bəlkə daha çoxunu qaldırmağa alışır.

Bu 5 misala qiyasən, cəhənnəm əhlinin əzabları və o əzabdan hasil olan ağrıları artdığı halda, zamanla vücud, o əzaba və ağrıya alışar. Yəni, halına riza göstərər və cəzasını qəbullanar. Gələcək ayətlər, bu həqiqəti ifadə etməkdədir:

إِنَّ ٱلْمُجْرِمِينَ فِى عَذَابِ جَهَنَّمَ خَـٰلِدُونَ *
لَا يُفَتَّرُ عَنْهُمْ وَهُمْ فِيهِ مُبْلِسُونَ

"Şübhəsiz ki, günahkarlar (kafirlər), əbədi olaraq Cəhənnəm əzabı içində qalacaqlar. Onların əzabı xəfiflədilməyəcək və onlar orada ümidsiz qalacaqlar."[1] Bu ayətlərdə, kafirlərin əzablarının 3 cəhətlə şiddəti bəyan olunmuşdur:

~ *Əzabın əbədi olmasıdır;*

~ *Əzabın xəfiflədilməməsidir;*

~ *Əzabdan qurtulmaqdan ümidlərini kəsmələridir.*

Bunun hər üçü də, əzab üzərinə əzabdır.

Bax, Ustad Nursi'nin, ***"Kafir, küfrünün cezası olarak kesb-i istihkak ettiği [haqq qazandığı] ebedi cehennemde kalmakla beraber,***

1 (Zuxruf/74-75)

amelinin cezasını çektikten sonra, ateşe karşı bir nevi ülfet peyda eder.” cümləsindən murad, yuxarıda zikr edilən mənalardır

• **İkinci məsələ:** Əzabın şəklidir. Kafirin küfrünün cəzası, əbədi cəhənnəmdir. Bu əzabda, xəfifləmə olmaz; Əksinə, hər an, əzabı çoxalar. Həm kafirə cəhənnəmdə fərqli əzab şəkillərilə əzab edilməsi də, əzabın çox olmasının bir başqa mənasıdır. Şanı uca olan Quran, bu həqiqəti, bir çox ayətilə bəyan etmişdir. Nümunə olaraq, bir neçəsini nəql edirik:

إِنَّ ٱلَّذِينَ كَفَرُواْ وَمَاتُواْ وَهُمْ كُفَّارٌ أُوْلَٰٓئِكَ عَلَيْهِمْ لَعْنَةُ ٱللَّهِ
وَٱلْمَلَٰٓئِكَةِ وَٱلنَّاسِ أَجْمَعِينَ ۞
خَٰلِدِينَ فِيهَا ۖ لَا يُخَفَّفُ عَنْهُمُ ٱلْعَذَابُ وَلَا هُمْ يُنظَرُونَ

«Kafir olub kafir kimi də ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu lənətin içərisində həmişəlik qalarlar. Onların əzabı xəfiflədilməyəcək və onlara möhlət də verilməyəcəkdir.»[1]**;**

وَإِذَا رَءَا ٱلَّذِينَ ظَلَمُواْ ٱلْعَذَابَ فَلَا يُخَفَّفُ عَنْهُمْ وَلَا هُمْ يُنظَرُونَ

«Zalımlar əzab çəkməyə başladıqda, onların əzabı xəfiflədilməyəcək və onlara möhlət də verilməyəcəkdir.»[2]**;**

ٱلَّذِينَ كَفَرُواْ وَصَدُّواْ عَن سَبِيلِ ٱللَّهِ زِدْنَٰهُمْ عَذَابًا
فَوْقَ ٱلْعَذَابِ بِمَا كَانُواْ يُفْسِدُونَ

1 (Bəqərə/161-162)

2 (Nəhl/85)

«Kafir olub insanları Allah yolundan sapdıranlara törətdikləri fitnə-fəsada görə əzab üstündən əzab artıracağıq.»[1]**;**

إِنَّ ٱلَّذِينَ كَفَرُوا۟ بِـَٔايَٰتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا
نَضِجَتْ جُلُودُهُم بَدَّلْنَٰهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُوا۟ ٱلْعَذَابَ ۗ
إِنَّ ٱللَّهَ كَانَ عَزِيزًا حَكِيمًا

«Şübhəsiz ki, ayələrimizi inkar edənləri odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı daim dadsınlar deyə, Biz o dəriləri başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir.»[2]**;**

...مَّأْوَىٰهُمْ جَهَنَّمُ ۖ كُلَّمَا خَبَتْ زِدْنَٰهُمْ سَعِيرًا

«Onların sığınacaqları yer Cəhənnəmdir. Onun alovu azaldıqca onlar üçün alovu artıracağıq.»[3]**;**

وَٱلَّذِينَ كَفَرُوا۟ لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَىٰ عَلَيْهِمْ فَيَمُوتُوا۟ وَلَا يُخَفَّفُ
عَنْهُم مِّنْ عَذَابِهَا ۚ كَذَٰلِكَ نَجْزِى كُلَّ كَفُورٍ

«Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı onlar üçün xəfiflədilər. Biz hər bir kafiri belə cəzalandırırıq.»[4]**;**

---

1 (Nəhl/88)
2 (Nisa/56)
3 (İsra/97)
4 (Fatir/36)

فَذُوقُواْ فَلَن نَّزِيدَكُمْ إِلَّا عَذَابًا

«Elə isə dadın əzabı! Biz sizə əzabdan başqa bir şey artırmayacağıq!»[1]

Xülasə: Kafir, əməlinin cəzasını çəkdikdən sonra, atəşə qarşı bir növ ülfət peyda edər. Bununla bərabər, çəkəcəyi əzabda və o əzabdan hasil olan ağrılarda, heç bir xəfifləmə olmaz. Əksinə, daimi olaraq həm əzab, həm də ağrı artar. Çünki, yuxarıdakı zikr edilən ayətlərin ifadəsilə, onlar haqqında Allahın hökmü budur.

Cəhənnəmdə kafirlərin əzablarının xəfiflədilməyəcəyini göstərən bunlar kimi digər ayətlər mövcud ikən, bu həqiqəti inkar etmək, ayətləri inkar hökmündədir. Ustad da, Quranın bu hökmünü bəyan etmişdir. O halda, əziz Ustadın bu ifadələri, Quranın ayətlərinə tam müvafiqdir; müxalif deyildir. Dolayısı ilə, Onun, Quranın bu hökmünə müxalif söz söyləməsi, təsəvvür edilə bilməz.

1 (Nəbə/30)